*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitinin ELMİ ƏSƏRLƏRİ № 30, 2021*
*УЧЁНЫЕ ЗАПИСКИ Азербайджанского Государственного Университета Культуры и Искусств № 30, 2021*
*SCIENTIFIC NEWS of Azerbaijan State University of Art and Culture № 30, 2021*

**UOT 75**

**Sənan Ağayev**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Doktorant**
**E-mail: phd.sananaghayev@gmail.com**

# AĞA MEHDİYEVİN RƏNGKARLIĞINDA MİLLİ ƏNƏNƏLƏR

**Xülasə**: Xalq Rəssamı Ağa Mehdiyevin yaradıcılığı Sovet hakimiyyəti illərinə təsadüf edir. Bu dövrdə təsviri sənətdə “sosialist realizmi” təsvir metodu fenomen idi. Siyasi hakimiyyət rəssamlar üzərində tələblər qoyurdu, bu tələblər dövlətin ideologiyasının vətəndaşlara aşılanmasına xidmət edirdi. Ağa Mehdiyev məhdud imkanları olmasına baxmayaraq, özünəməxsus yaradıcılıq üslubu formalaşdırmışdır. Onun əsərlərinin kompozisiya quruluşu və koloriti Azərbaycan milli rəngkarlıq məktəbi ənənələrini əks etdirirdi. Miniatür sənəti ənənələrinə qayıdan sənətkar perspektivadan imtina edir, sərt rəng keçidləri ilə ahəngdarlıq yaratmağa nail olur. Onun yaradıcılığında portretlərə, mənzərələrə, natürmortlara və çoxfiqurlu kompozisiyalara rast gəlmək mümkündür.

**Açar sözlər**: Ağa Mehdiyev, sovet ideologiyası, təsviri sənət, rəngkarlıq, sosialist realizmi, kolorit, milli ənənələr.

Azərbaycanın Xalq rəssamı, çoxşaxəli və zəngin yaradıcılığı ilə milli rəngkarlıq məktəbimizin öz sözünü demiş, ustad sənətkarlarından sayılan Ağa Mehdiyevin yaradıcılığı janr və mövzu baxımından müxtəlifliyilə seçilir. Yaradıcılığında rəngkarlığın bir çox janrına müraciət edən sənətkarın əsərləri özünün kolorit baxımından ahəngdarlığı, kompozisiya cəhətdən dinamik olması ilə ön plana çıxır. Bu məqalədə mövzu seçimində sabit qalmayan, eyni zamanda həm dramatik çalarlara, həm bayram əhval-ruhiyyəsinə malik olan, həm tək bir insanın portretini, həm də müxtəlif mövzuda çoxfiqurlu kompozisiyalar yaradan istedadlı rəssamın Azərbaycan xalqının qədim və zəngin tarixi və mədəniyyətinə söykənən milli rəngkarlıq ənənələrini özündə ehtiva edən tabloları sənətşünaslıq elminin sistemli-kompleks elmi yanaşma və müqayisəli təhlil metoduna əsasən şərh olunmuşdur.

Yazıma klassik alman fəlsəfəsinin görkəmli nümayəndəsi Georq Vilhelm Fridrix Hegelin bu fikri ilə başlamaq istərdim: “Layiqli forması olmayan sənət əsəri əsl, həqiqi sənət əsəri deyildir ... Məzmunu və forması yalnız eyniyyət təşkil edən incəsənət əsəri həqiqi əsərdir” [7, s. 97]. Filosofun burada “eyniyyət” anlayışından tam mənada bəhs etdiyini düşünmək olmaz, yəni söhbət məzmun və forma arasında birə-bir eynilik olmasından getmir, əsas məsələ bu iki anlayışın məntiqi baxımdan uyğun olması və bir-birini tamamlamasıdır. Bu əsasa diqqət

yetirilərək yaradılan incəsənət əsərləri daha yetkin hesab olunur, necə ki, bu əsərləri yaradan sənətkarlar da izləyicilər tərəfindən daha yüksək qiymətləndirilir. Daha böyük ustalıq isə bu uyumluluğu ziddiyyətlərin mövcud olduğu, məhdudiyyətlərin qoyulduğu, incəsənətin çərçivələrə sığışdırıldığı siyasi-tarixi şəraitdə yaratmaq, qoruyub saxlamaq və hətta, özünəməxsuslaşdırmaqdır - deyə bilərik. Ağa Mehdiyev Azərbaycanda Sovet hakimiyyətinin mövcud olduğu dövrə təsadüf edən yaradıcılığında məhz buna nail olmuşdur. Əsərlərində mövzu cəhətdən milliliyi, xəlqiliyi ön planda saxlayan rəssam forma baxımından xalqın qədim və zəngin təsviri incəsənət ənənələrinə söykənməklə əsərlərinin məzmunu və forması arasında məntiqi bağlılıq yarada bilmişdir. Söhbət sənətkarın tablolarında dekorativlik və perspektivadan imtina şəklində özünü büruzə verən miniatür sənəti ənənələrindən gedir.

Mövzunun daha dərindən öyrənilməsi üçün Azərbaycanda 1920-ci ildən 1991-ci ilə qədər mövcud olmuş Sovet hakimiyyəti dövründə incəsənət və dövlət siyasəti arasındakı qarşılıqlı əlaqəni də öyrənmək lazımdır. Özlüyündə birtərəfli olan bu “qarşılıqlı” əlaqənin istiqaməti dövlətdən incəsənətə doğru idi, çünki, dövri ədəbiyyatda hər nə qədər müstəqil yaradıcılıq metodundan danışılsa da, əslində, siyasi hakimiyyət təkli yaradıcılıq metodu ortaya qoymuşdu. Bu metod sonradan “sosialist realizmi” adı ilə tanınmağa başlamışdı. Metodun əsasını reallığın kommunistlərin əsas prinsipləri əsasında təhrif və idealizə edilərək təsvir edilməsi təşkil edirdi. 2007-ci ildə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin rəhbərliyi ilə hazırlanıb çap olunan “Azərbaycan Milli Ensiklopediyası”nda bu haqda deyilir: “Kommunistlərin dövlətin də siyasətinə çevrilmiş “Ya bizdən ol, ya bizə qarşı” tələbi müstəqil düşünməyi, mövzu, ifadə tərzi seçməyi sənətkarlara tədricən yasaq edirdi” [2, s. 768]. Belə şəraitdə öz yaradıcılıq metodunu tapa bilən və hakimiyyətin tələbindən asılı olmayaraq doğma xalq ənənələrinə bağlı qalmağı bacaran sənətkarlar adlarını tarixə yaza bilmişdirlər. Ensiklopediyanın başqa bir hissəsində qeyd edilən bu fikrə də diqqət çəkmək yerinə düşər: “1934-cü ildə sosialist realizmi bütün SSRİ-də olduğu kimi Azərbaycanda da yeganə yaradıcılıq metoduna çevrildi. Əslində bu, metod yox, partiya tapşırığı idi. “Hər şeyi inqilabi inkişafda görmək və təsvir etmək”, “sosializmin qalibiyyətli yürüşünü tərənnüm etmək” rəssam və heykəltəraşların da yaradıcılıq kredosuna çevrildi” [2, s. 769]. Sənətkarlar nəinki azad fəaliyyətdə olduqları dövrdə bu tələblərlə qarşılaşır, artıq təhsil almağa başladıqları zamandan fəaliyyətlərinin bünövrəsi siyasi hakimiyyətin tələbləri əsasında qoyulurdu. Tarix elmləri doktoru Məryəm Seyidbəylinin rəhbərliyi ilə 2019-cu ildə hazırlanmış “Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik” adlı elmi topluda qeyd edilib: “Sovet dövrü Azərbaycan incəsənətində məhz realizm aparıcı bədii istiqamət olmuşdur. Azərbaycan rəssamlarının böyük əksəriyyəti Moskva və Leninqradın (Sankt-Peterburqun) ali məktəblərində təhsil almışlar. Burada onlar digər milli məktəblərin

nümayəndələrilə yanaşı Sovet İttifaqında yeganə yol verilən üslubda, sosialist həyat tərzini təbliğ edən sosializm realizmi məcrasında formalaşırdılar" [4, s. 222]. Bütün bunlara baxmayaraq ürəyi xalq ilə döyünən sənətkarlar öz fəaliyyətlərini mütərəqqi yaradıcılıq ənənələrimiz əsasında formalaşdırırdılar. Akademik təhsillərini dövrün tələbi olan metod əsasında almalarına baxmayaraq, müstəqil yaradıcılıq dövrünə qədəm qoyduqları zaman rəssamlarımızın əsərlərində milli ənənələrə əsaslanan dəst-xətt inkişaf edirdi.

Bu baxımdan Ağa Mehdiyevin yaradıcılığının həm erkən, həm də yetkin dövrünə aid olan əsərləri analiz etdikdə milli ənənələrin tərənnümü müşahidə edilir. Bu ənənələr erkən dövrdə daha çox mövzu seçimi baxımından ön plana çıxırsa, yaradıcılığının yetkin mərhələsində sənətkar Azərbaycan milli rəngkarlıq ənənələrinin dərin bilicisi kimi çıxış edirdi.

Sənətkarın erkən dövr boyakarlıq əsərlərinə rəngarənglik xasdır. Akademik rəngkarlıq təhsili alan rəssam bu sistemin tələblərindən hələ tam uzaqlaşa bilmir, əsərlərində fiqurların məkanda yerləşdirilməsində, işıq və kölgə keçidlərinin nizamlanmasında perspektiva qanunlarına riayət olunur. Bu qəbildən "Toy" əsəri ən gözəl nümunə ola bilər. Əsərin mövzusu Azərbaycan xalqının qədim toy adət və ənənələrinin bir parçası olan gəlin köçürmə mərasimindən götürülmüşdür. Şənlik əhval-ruhiyyəsi aydın hiss olunan tabloda milli musiqi alətlərimizin müşayiəti ilə ata ocağından çıxan gəlin, bəy, şadyanalıqla rəqs edən nənə və ona alqış tutan qohumlar təsvir olunmuşdur. Yüksək sevinc hissləri ilə şirin bir hüznü özündə birləşdirən əsərin kolorit həllində də isti və soyuq rənglərin ahəngdar növbələşməsini görə bilirik. Hər bir obrazın əlvan geyimdə təsvir olunduğu tablonu rəngarəng xalıya bənzətmək olar.

Sonrakı mərhələdə rəssam akademik tələblərdən uzaqlaşaraq fərdi təsvir xüsusiyyətləri formalaşdırır. Belə əsərlərdən ən sadə nümunə kimi "Novruz" adlı tablonu göstərə bilərik. Əsərin məzmunu milli ruhludur, ən qədim xalq bayramını isti ocaqlarında, mütəvazi süfrə ətrafında toplaşaraq qeyd edən böyük bir ailə təsvir olunmuşdur. Arxa planda ailə başçısı və evin ən kiçikləri, orta və arxa planda isə xanımlar yerləşdirilib. Amma bu planlar bir qədər şərti xarakter daşıyır, çünki rəssam obrazın hansı planda yerləşməsindən asılı olmayaraq boy nisbətlərini eyni təqdim edir. Müsəlman şərqinə xas olan, eyni zamanda xalqımızın rəngkarlıq ənənələrinin formalaşmasına köklü surətdə təsir edən miniatür boyakarlığından qaynaqlanan bu xüsusiyyətlər Ağa Mehdiyevin yaradıcılığında tədricən üstünlük təşkil etməyə başlayır və bir müddət sonra artıq rəssamın imzasına çevrilir. "Novruz" əsərində fəza dərinliyi illüziyası nə işıq və kölgə növbələşməsilə, nə də fiqurların ölçü nisbətlərilə yaradılmayıb, ancaq elementlərin bir-birinə nəzərən yerləşməsinə diqqət yetirərək ön və arxa planlar ayırd edilə bilər. Eyni zamanda şərti dekorativlik və fiqurativlik də bu tablonu xarakterizə edən cəhətlərdir.

Ağa Mehdiyevin rəngkarlığına xas olan bu xüsusiyyətlər "Yaylaqda çoban ailəsi" əsərində də açıq şəkildə müşahidə olunur. Lakin burada fərqli bir cəhət vardır, rəssam iki fərqli plan təqdim edir. Arxa planda çadırın girişindən bayırda görünən atlar və dağ mənzərəsi rəngkarlığın alışılmış perspektiva qaydalarına əsasən qurulub. Bundan fərqli olaraq ön planda yerləşdirilən çoban və ailəsi yenə də dekorativ təsvir edilmişdir, süfrənin əks tərəflərində qarşı-qarşıya təsvir edilmiş kişi və qadın fiquru izləyicidən hansı uzaqlıqda yerləşməsindən asılı olmayaraq eyni ölçülərdədir.

Oxşar kompozisiya quruluşuna malik olan "Heç kim unudulmur" adlı tablosunda rəssam əlvan kolorit həlli ilə duyğusal bir səhnəni təsvir etmişdir. Əsərin məzmunu "Böyük Vətən Müharibəsi"ndən götürülüb. Naməlum əsgərin məzarı ətrafına toplaşmış insanlar əsgəri rəğbətlə yad edir, abidənin üzərinə gül dəstələri qoyurlar. Daha öncəki əsərdə olduğu kimi burada ikiplanlı təsvir yaradılmışdır. Ön planda təsvir edilən əsas səhnədə rəssam fiqurları düzbucaqlı platforma üzərində dəyirmi şəkildə toplamışdır. Rəssamın fərdi təsvir metoduna aid olan spesifik bir cəhətə başqa əsərlərində olduğu kimi bu tabloda da rast gəlinir – izləyicidən fərqli uzaqlıqlarda olan fiqurların təsvir olunduğu platforma tam düzbucaqlı formada təqdim olunur, alışılmış dərinlik qanunlarına görə bu fiqur uzaqlaşdıqca daralmalıdır və ətrafında olan insanlar da öndə olanlara nisbətən kiçik təsvir olunmalıdır, amma sənətlər bu qaydalardan imtina edərək orijinal bir təsvir üslubu və bir-birindən gözəl əsərlər yaradıb.

Nümunələrdən də göründüyü kimi Ağa Mehdiyevin fərdi təsvir metodunun əsas qaynaqları Azərbaycan milli rəngkarlıq məktəbi ənənələri və miniatür boyakarlığı olmuşdur. Rəssam yaradıcılığının qızğın dövründə kəskin rəng keçidləri ilə harmonik kolorit həlli, isti rənglərlə soyuq rənglərin ahəngdar növbələşməsilə yaradılan, dekorativlik və fiqurativliyin ön planda olduğu bir-birindən maraqlı tablolar yaratmağa nail olmuşdur. Sovet hakimiyyəti dövründə mövcud olan ziddiyyətlərə baxmayaraq, sənətkar fərdi yaradıcılıq metodu ortaya qoya bilmiş, azad yaradıcılıq meyllərinə əngəl törədən quruluşa özünəməxsus tərzdə meydan oxumuşdur. Seçdiyi məzmunların milli ruhu, doğma yurda və təbiətə, xalqına bağlılığı ilə seçdiyi mövzularda yaratması Ağa Mehdiyevin tablolarını bu günün sənətsevərləri üçün də aktual edir.

## Ədəbiyyat siyahısı:

1. Ağayev S.Ə. Ağa Mehdiyevin yaradıcılığında portret janrı // Bakı: Mədəniyyət Dünyası – elmi nəzəri məcmuə. 2018. №36. – s. 93-96.
2. Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. Məsul katib akademik T.M.Nağıyev. "Azərbaycan" cildi / redaksiya heyətinin sədri İ.H.Əliyev, - Bakı: "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi. – 2007. – 884 səh.

3. Azərbaycan sovet təsviri incəsənəti oçerkləri / N.Həbibov, N.Hacıyev, N.Miklaşevskaya [və b.] Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1960.
4. Azərbaycançılır ideologiyası: ənənə və müasirlik / elmi redaktor akademik İsa Həbibbəyli, Bakı: Elm və Təhsil. 2019. – 456 səh.
5. Əzimova K. Rənglərdən ilham alan sənətkar // Mədəniyyət, 2020, 19 mart, s.6.
6. Gezer, Ö. Sanat siyaset ilişkisi, propaganda ve protesto // İdil. 2017. № 6.39. – s. 3091-3110.
7. Hegel, G.V.F. Fəlsəfə elmləri ensiklopediyası. I cild. Məntiq elmi / G.V.F.Hegel. Bakı, 2005, 460 səh.
8. Quliyev Ə. Milli ruhlu rəssam // Mədəniyyət, 2015, 16 dekabr, s.15.
9. Litvin M.D. İzomaterial: Ağa Mehdiyev. Bakı: İşıq, 1990, 104 s.
10. Soltanlı S. Sadə və isti rənglər ustası // Mədəniyyət, 2015, 2 oktyabr, s.15.
11. Vəliyev K. Təbiət və həyat rənglərin ecazkar aləmində // Mədəniyyət, 2014, 6 avqust, s. 12.

**Санан Агаев**

## Национальные традиции в живописи Ага Мехтиева

**Резюме:** Творчество народного художника Ага Мехтиева восходит к советским временам. В то время метод «соцреализма» в изобразительном искусстве был явлением. Политическая власть предъявляла требования к художникам. Эти требования послужили привитию гражданам идеологии государства. Несмотря на ограничения, Ага Мехтиев овладел уникальным творческим стилем. Композиционная структура и колорит его работ отражают традиции Азербайджанской национальной школы живописи. Возвращаясь к традициям миниатюрного искусства, художник отказывается от перспективы и умудряется создать гармонию с резкими переходами цветов. В его работах можно найти портреты, пейзажи, натюрморты и многофигурные композиции.

**Ключевые слова**: Ага Мехтиев, советская идеология, изобразительное искусство, живопись, соцреализм, цвет, национальные традиции.

**Sanan Aghayev**

## Soviet ideology and Aga Mehdiyev's creativity

**Summary:** The work of the People's Artist Aga Mehdiyev dates back to Soviet times. At that time, the method of depicting "social realism" in the visual arts was a phenomenon. The political authorities made demands on artists. These requirements served to instill the ideology of the state in the citizens. Despite the limitations, Agha Mehdiyev has formed a unique creative style. The compositional structure and color of his works reflected the traditions of the Azerbaijani National School of Painting. Returning to the traditions of miniature art, the artist refuses perspective and manages to create harmony with sharp colors transitions. In his works, you can find portraits, landscapes, still lifes, and multi-figure compositions.

**Key words:** Aga Mehdiyev, Soviet ideology, fine arts, painting, socialist realism, color, national traditions.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 27. 09. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**